


# Məktəblilərdə milli şüur və ləyaqətin tərbiyə edilməsində uşaq kitabxanalarının rolu

Azərbaycan Respublikasının Beynəlxalq aləmə çıxması, onun nüfuzlu Beynəlxalq məclislərdə təmsil olunması xalqımızda soy kökünə qayıdış, milli qürur və milli şüurun formalaşmasına, milli ləyaqətin tərbiyə edilməsinə ciddi zəmin və şərait yaratmışdır. Azərbaycan xalqı, onun ziyalısı, fəhləsi, kəndlisi, məktəblisi milli kökü, tarixi, ədəbiyyatı haqqında, özünün tarixi köklərini dərindən dərk etməyə çalışır.

Hər bir məktəblidə milli mənlik şüurunun formalaşdırılması onun cəmiyyətdə, ictimai münasibətlərin bütün sistemində tutduğu və oynadığı rolu müəyyənləşdirir, onun mənəvi keyfiyyətlərinin qabarıq ifadəsinə çevrilir. Maddi və mənəvi zəmində tərbiyə olan məktəbli özünün, xalqının varlığını dərk edir, torpaq, Vətən, xalq, millət kimi böyük arzular və müqəddəs amallar dünyasına daxil olur. Bu çox mürəkkəb prosesdə onun mənəviyyatı, əqidəsi, dünyagörüşü formalaşır. Məktəbli dərindəndərinə dərk edir ki, əzəmətli ağaclar öz kökləri üzərində dayandığı kimi hər bir şəxs də öz xalqı, öz milləti içərisində təşəkkül tapır, öz xalqına, öz millətinə xidmət edir. Milli şüur formalaşdıqca məktəblidə milli ləyaqət tərbiyə olunur. Məktəbli oxucu belə bir həqiqəti dərk edir ki, millət və xalqın, Vətənin, doğma yurdun taleyi onun taleyinə qovuşur, şəxsi ideal və arzuların tərkib hissəsinə çevrilir.

Böyüməkdə olan nəslin milli şüurunun və milli ləyaqətinin tərbiyə edilməsində, mədəniyyətimizin, tariximizin, ədəbiyyatımızın onlara düzgün öyrədilməsində kitabxanaçılarımızın - xüsusilə uşaq kitabxanaçıları qarşısında mühüm vəzifələr dayanır. Bu məqsədlə kitabxanaçılar məktəbli oxucuları dərsliklərdən kənara çıxararaq digər bədii nümunələrlə tanış etməli və onları həmin əsərləri oxuyub nəticə çıxarmağa istiqamətləndirməlidirlər.

Milli şüur və ləyaqətin tarixi kökləri türk dilli xalqlarda, habelə Azərbaycan xalqında çox qədim dövrlərə gedib çıxır. Türklər (türkdilli xalqlar) dünya dövlətçiliyi tarixində dərin iz qoymuş millətlərdir. Hun imperiyası, Göy Türk xaqanlığı, Səlcuqlar və Qəznəvilər dövləti, Xarəzmşahlar səltənəti, Osmanlı imperiyası, Əmir Teymur və Şah Babur imperiyaları, Atabəylər dövləti, Səfəvilər dövləti və s. Türk siyasətçiləri bütün türk dövlətlərini birləşdirə biləcək dövlət qurmaq üçün həmişə fəaliyyət göstərmişdir.

Milli şüur və layəqətin tarixi kökləri təsdiq edir ki, hər bir xalq, həmçinin Azərbaycan xalqı özünün tarixi şəxsiyyətlərilə öyünməyə böyük mənəvi haqqı vardır. Milli şüurun formalaşmasına müxtəlif amillər təsir göstərir. Bunların içərisində demokratik əsaslarda qurulmaqda olan ictimai mühit, həyat tərzi birinci yerdə durur. Demokratik əsaslarda qurulmaqda olan dövlət qurumu, həyat tərzi insanların şəxsiyyətinin formalaşmasında mühüm amildir. Deməli, insan, məktəbli öz həyatını ancaq həqiqi və hiss edilə bilən şeylər üzərində təzahür etdirə bilər. Həqiqi və hiss edilə bilən şeylər uşağın duyğu üzvlərinin, şüurunun, fiziki qabiliyyətlərinin inkişafı üçün zəruridir. Uşaq ictimai mühitin, həyat tərzinin təsiri altında formalaşır. Məktəbli yaşa dolub sinifdənsinfə keçdikcə onun mənəvi keyfiyyətlərinin sahəsi genişlənir.

Məktəblilərdə milli şüuru formalaşdıran imkanlar daha geniş və əhatəlidir. Bu imkanlar sırasında müəllim şəxsiyyəti, dərsliklər, informasiya vasitələri xüsusilə də mənəvi xəzinəmiz olan kitabxanalar mühüm rol oynayır.

Məktəbli oxucuların həyatın fəal mübarizləri kimi pak və səmimi duyğularla Vətənə, xalqa bağlılıq ruhunda ləyaqətli vətəndaş kimi tərbiyə edilməsi üçün müəllimlərlə yanaşı kitabxanaçılar da sinifdənxaric tədbirlərdə dərs prosesini sıx şəkildə əlaqələndirməli və bu əlaqələri bacarıqla hisslərin, duyğuların əməli tərbiyəsinə yönəltməyə çalışmalıdırlar.

***(Davamı 44-cü səhifədə)***

# Məktəblilərdə milli şüur və ləyaqətin tərbiyə edilməsində uşaq kitabxanalarının rolu

Milli şüurun, milli qürur və ləyaqətin ilkin ünsürləri ibtidai siniflərdə qoyulur. Şagirdlər (kiçik yaşlı oxucular) ibtidai siniflərdə oxuduğu müddətdə təbiət və cəmiyyət hadisələri ilə tanış olur, soy kökünə tarixinə, doğma xalqının mədəniyyətinə dair, habelə başqa xalqların varlığına dair məlumatlar əldə edirlər. Şagirdlərdə (kiçik yaşlı oxucularda) milli şüur ana dili ilə, Vətənlə, doğma diyarla tanışlıq əsasında təşəkkül tapır. Ana dili hər bir xalqın hikmət xəzinəsidir, onun varlığıdır. Hər bir xalq özünü öz dili ilə yaşadır. Dil xalqın özüdür. Xalqın bütün həyatı, mənəviyyatı, tarixi, musiqisi, ədəbiyyatı, elmi dildə öz ifadəsini tapır.

Kitabxanalarda kiçik yaşlı oxuculara Azərbaycan Demokratik Respublikası liderlərinin, Azərbaycan milli generallarının, ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinə dair maraqlı tədbirlər keçirmək məqsədəuyğundur. Bu məqsədlə "Sənin baban kim olub?, "Ən parlaq nümunə", "Şəhid – vətən deməkdir", "Heydər Əliyev həmişə bizimlədir" və s. mövzularda müxtəlif tədbirlər keçirmək mümkündür.

"Sənin baban kim olub?" mövzusunda davamlı söhbətlər keçirmək məqsədəuyğundur. Çünki tarixi şəxsiyyətlərimimz haqqında söhbətlər kiçik yaşlı oxucuları daha çox maraqlandırır. Oxucular Cavanşir, Şəmsəddin Eldəgiz, Uzun Həsən, Şah İsmayıl Xətai, Koroğlu, Pənah xan, Cavad xan və s. tarixi şəxsiyyətlərimiz, siyasi və dövlət xadimlərimiz haqqında olan kitabları maraqla oxuyur, tədbirlərdə fəal iştirak edirlər. Bu mövzuda nəşr olunmuş kitablarla fondlarını zənginləşdirən kitabxanalar, yaxşı olar ki, ayrıca qovluq ayırıb mətbuatda dərc olunan materialları həmin qovluqda saxlasınlar, yeri gəldikcə oxucuları da bu işə cəlb etsinlər. Müasir informasiya vasitələri ilə təmin olunan kitabxanalarda isə tarixi şəxsiyyətlərimiz haqqında xüsusi saytların - səhifələrin açılması məqsədəuyğundur. Bu iş müasir oxucunun hərtərəfli informasiya almasına səbəb olar.

Kiçik yaşlı oxucularla doğma yurd haqqında, onun yeraltı və yerüstü sərvətləri, suları, oylaqları, bir sözlə zəngin təbiəti, mədəniyyəti, incəsənəti və musiqisi, yazıçı, şair və bəstəkarları, milli bayramları haqqında tədbirlərin təşkili vacibdir. Bu yaşlı oxucularla keçirilən bayram tədbirlərində Novruz bayramına , Novruz adət-ənənələrinə geniş yer verilməlidir. Tədbiri təşkil edən kitabxanaçı oxuculara xatırladır ki, Novruz bayramını yalnız Azərbaycan xalqının deyil, bütövlükdə Şərq müsəlman ölkələri xalqlarının bayramı hesab etmək lazımdır. Bununla belə bu bayramın təşəkkül tapmasında, inkişafında Azərbaycan xalqının öz payı, öz töhvəsi vardrır. Novruz bayramı xalqımızın tarixidir, şənliklər şənliyi, bayramlar bayramıdır. Novruz bayramı mənəvi zənginlik, əxlaqi kamillik, saflıq dünyasıdır.

Kiçik yaşlı oxucularla (III-IY sinif şagirdləri) aparılan tədbirlər zamanı məlum olur ki, onlar milli qürur, milli ləyaqət hisslərinin mahiyyətini bəsit şəkildə olsa da başa düşür, müxtəlif dövrlərdə yaşamış tarixi şəxsiyyətlərin, yazıçı və şairlərin öz xalqına necə xidmət etdiyini öyrənirlər. Xalqımızın sərkərdələrinin qəhrəman övladlarının qorxu bilmədən xarici düşmənlərə qarşı amansız mübarizə apardıqları onlarda milli qürur hissi oyadır.

Bu tədbirlər zamanı istifadə olunan ədəbi-bədii, tarixi parçalar oxucuları sadə şəkildə olsa da cəmiyyətin tarixi ilə tanış edir, millət, milli şüur, milli ləyaqət və s. kimi anlayışları mənimsəyirlər. Onlar tarix boyu zəhmətkeş insanların yaşayış tərzilə tanış olur, azadlıq uğrunda insanların mübarizə tarixinin kiçik səhifələrini oxuyurlar.

Orta və yuxarı yaşlı məktəbli oxucularla kitabxanalarda təşkil edilən bütün məktəbdənkənar tədbirlər, xüsusən dərnək məşğələləri, söhbətlər, disput və müzakirələr, ədəbi-bədii gecələr və s. tədbirlər onların milli şüur və milli ləyaqət tərbiyəsinin formalaşdırılması prosesinin imkan dairəsini daha da artırır. Bu tədbirlər zamanı kitabxanaçılar söhbətlərin düzgün ideya istiqamətli olmasına, bədii əsərlərin müvafiq seçilməsinə, proqramın estetik cəhətdən düzgün tərtibinə nail olmağa çalışmalıdırlar. Ədəbi-bədii gecələr, oxucu konfransları üçün əsasən N.Gəncəvinin, Ş.İ.Xətainin, Tofiq Fikrətin, Ə.Cavadın, H.Cavidin, C.Cabbarlının, Z.Göyalpın, Y.Əmrənin, M.Ə.Rəsulzadənin, Ə.Ağaoğlunun, Ü.Hacıbəyovun və digər klassiklərimizin yaradıcılıqlarına müntəzəm olaraq müraciət etmək məqsədəuyğun olar.

Müasir ədəbiyyatımız da milli qürur və milli ləyaqəti təbliğ edən əsərlərlə zəngindir. Kitabxanaçılar bu əsərlərə də tez-tez müraciət etməlidirlər.

Oxucuların vətəndaşlıq, milli ləyaqət və milli şüur tərbiyəsində B.Vahabzadənin "Şəhidlər" poeması böyük təsir gücünə malikdir. Xüsusilə ədəbi-bədii gecələr zamanı bu poemadan parçalar söylənilməsi, əsərin müzakirəsi məktəbli oxucuların vətəndaşlıq hisslərinin tərbiyəsinə əhəmiyyətli təsir göstərir.

***Bir iş görmədilər yaşayan zaman,***
***Lap çox iş gördülər ölümləriylə***

- deyən şair B.Vahabzadə bu ölümün ölümsüzlüyə qovuşduğunu və müasir oxucuya nümunə olduğunu təqdir edir və onlarda milli qürur və ləyaqət hissini daha da alovlandırır.

***Bu ölüm, bu qırğın dərs olsun bizə,***
***Deməyək boş yerə candan keçdilər.***
***Onlar şəhid olub millətimizə,***
***Qorxmazlıq dərsini təlim keçdilər.***

Şəhidlər Xiyabanı - Bakının od qoxuyan nəfəsinin nakam dünyasıdır. Müqəddəs and yerimiz, tale yanğımızdır. Şəhidlər Xiyabanı, "Müqəddəs ruhların yaşadığı Vətən torpağı ayağa qalx!"dedi Azərbaycan oğulları! Şəhidlik tarixi anddır. Baxır bu anda kim layiq görülür. Xaliqin ən gözəl yaratdığı İnsan ömür mahnısının son akkordlarını da çalıb, əbədiyyətə qovuşmaq anına qədər yüksəlir. Belə yüksəliş qarşısında isə səcdə edilir. Hər bir məktəbli oxucu Şəhidlər Xiyabanına qədəm qoyarkən mənən paklaşır, əxlaqi baxımdan zənginləşir.

Milli qürur hissi keçirir, düşməndən intiqam almaq hissi alovlanır. O dərk edir ki, Vətən hamımızındır. Hamılıqla mübarizəyə qalxıb ən müqəddəs Vətənimiz olan Azərbaycan torpaqlarını qorumalıyıq. Məktəbli oxucuların Şəhidlər Xiyabanına ziyarət zamanı aldıqları dərs, özü də müqəddəs dərsdir.

Məktəbli oxucuların milli şüur və milli ləyaqət hissinin tərbiyəsində böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" əsərinin geniş müzakirəsi də təşkil edilməlidir. Müzakirədə kitabxanaçı və ya ədəbiyyat müəllimi ilk söz söyləməlidir.

İlk sözdə M.Şəhriyar, onun həyat və yaradıcılığı, "Heydərbabaya salam" poemasının yazılması, poemanın Azərbaycan ədəbiyyatında "Ədəbi hadisə" olması haqqında qeydlər olmalıdır. Əsərin müzakirəsinin qısa planını veririk:

İlk söz: M.Şəhriyar 1906-cı ildə Təbrizdə ziyalı ailəsində dünyaya göz açmışdır. O, ilk təhsilini kənd məktəbində almış, Təbrizdə ibtidai və orta məktəbi bitirmişdir. Orta təhsilini başa vurduqdan sonra Tehran darülfünunda, sonra isə tibb fakültəsində təhsil almağa başlamışdır. Lakin son kursda təhsilini buraxıb dövlət qulluğuna girməyə məcbur olmuşdur.

Onun ilk şer kitabı 1931-ci ildə Tehranda nəşr edilmişdir. Ona dünya şöhrəti qazandıran "Heydərbabaya salam" poeması 1953-cü ildə yazılmış, 1954-cü ildə nəşr edilmişdir. M.Ə.Rəsulzadə "Heydərbabaya salam" əsəri haqqında məqaləsində onu Azərbaycan ədəbiyyatında "ədəbi hadisə" saymışdır. Bu poemanın hər sətrində anaya, doğma yurda tükənməz məhəbbət tərənnüm edilir. Kim Azərbaycan təbiətini, onun başı ağ örpəkli, şiş ucları buludlarla öpüşən dağlarını, gurhagurla axan çaylarını, dumduru diş göynədən sulu bulaqlarını, füsunkar meşələrini, bərəkətli torpağını, zəhmətsevər, məğrur insanlarını, zəhmətkeş və xalqımızın real varlığını, onun adət-ənənəsini , sevincini, kədərini, arzusunu, diləyini görmək və bilmək istəyirsə....

(bu vaxt unudulmaz müğənnimiz Rübabə Muradovanın könülləri riqqətə gətirib gözləri yaşardan titrək səsi ətrafa yayılır:)

***Heydərbaba, ildırımlar çaxanda***
***Sellər, sular şaqqılldayıb axanda,***
***Qızlar ona səf bağlayıb baxanda***
***Salam olsun şövkətüzə, elüzə,***
***Mənim də bir adım gəlsin dilüzə.***
***Heydərbaba, gün sinəni dağlasın,***
***Üzün gülsün, bulaqların ağlasın,***
***Uşaqların bir dəstə gül bağlasın,***
***Yel gələndə, ver gətirsin bu yana,***
***Bəlkə mənim yatmış bəxtim oyana.***
***Heydərbaba, yolum sənnən gəc oldu,***
***Ömrüm keçdi, gələmmədim, gec oldu,***

*Heç bilmədim gözəllərin nec oldu,*
*Bilməz idim döngələr var, dönüm var,*
*İtginlik var, ayrılıq var, ölüm var.*

Əziz oxucular, bax biz bu gün ustad şairimiz Şəhriyarın "Heydərbabaya salam" əsərini müzakirə edəcəyik. İndi söz sizindir.

Məktəbli oxucular bir-bir söz alıb çıxışlara başlayırlar.

I OXUCU: Məni "Heydərbabaya salam" əsərinin sadəliyi, xəlqiliyi valeh edir. O bir sənətkar kimi xalqı ilə yaşayır, xalqı ilə düşünür. Xalq həyatı bütün rəngarəngliyi ilə onun sətirləri arasından baş qaldırır, adamı kədərləndirir, sevindirir. O, xalqı birliyə, mübarizəyə, əsarət zəncirini qırmağa çağırır:

*Heydərbaba, göylər bütün dumandı,*
*Günlərimiz birbirindən yamandı,*
*Bir-birizdən ayrılmayın, amandı!*
*Yaxşılığı əlimizdən alıblar,*
*Yaxşı bizi yaman günə salıblar.*

Belə bir ağır gündə şair ayrı düşdüyü elindən soraq tutur, onunla dərdləşir:

*Bir uçaydım bu çırpınan yelinnən,*
*Bağlasaydım dağdan aşan selinən,*
*Ağlaşaydım uzaq düşən elinən,*
*Bir görəydim ayrılığı kim saldı?*
*Ölkəmizdə kim qırıldı, kim qaldı?*

"Heydərbabaya salam" poeması Şəhriyarın şah əsəridir. Burada xalqın həytı, adət-ənənələri çox gözəl təsvir edilmişdir. Bu əsər Şəhriyarın ölməzlik heykəlidir.

II OXUCU: Şəhriyar çox böyük sənətkardır. O nikbin gələcəyə inanan, nurlu sabahı görən şair idi. Şair baba yurdunda keçən uşaqlıq, yeniyetməlik çağlarının unudulmaz xatirələr silsiləsini təsvir edir. Xatirələr karvanında yalnız onun özü və özünə bənzər dəcəl yaşıdları deyil, elin şeyxi, axundu, mollası, çavuşu, Kərbəla ziyarətinə gedənləri, ahıllı-cahıllı, nənəli, xalalı, bibili, əmili, dayılı bütün qohumları və tanışları görünür, elin əkin-biçini, ovçuları və ovlaqları, el yaylaqları və aranları, sazlı, aşıqlı məclisləri, toy-düyününü, el yası bir kino lenti kimi göz önündən gəlib keçir. Şair bu lenti "Sinema" - kino pərdəsi adlandırır. "Sinema" pərdəsi kənara çəkiləndə el-oba, qohum-əqraba mehribanlığı, uşaqların qayğısız bəxtiyarlığı, Novruz bayramı lövhələri görünür:

*Heydərbaba, dağın, daşın, sərəsi*
*Kəklik oxur, dalısında fərəsi,*
*Quzuların ağı, bozu, qərəsi,*
*Bir gedərdim dağ-dərələr uzunu,*
*Oxuyardım: "Çoban, qaytar quzunu".*

*Qarı nənə gecə nağıl deyəndə,*
*Külək qalxıb qapıbacanı döyəndə.*
*Qurd keçinin şəngülüsün yeyəndə,*
*Mən qayıdıb bir də uşaq olaydım*
*Bir gül açıb ondan sonra solaydım.*

III OXUCU: Əsərin ikinci hissəsində şair öz elinə gəlir, Heydərbabaya qovuşur. Uzun sürən ayrılıqdan sonra gəlib qovuşduğu vətəndə yaşadığı duyğularını, düşüncələrini əks etdirir. Şair doğma yurda iki arzuyla "ana qucağında yuxulayıb rahatlanmaq və ömrü "bəlkə burada haqlamağ"a gəlmişdi. Təəssüflər ki, vətəndə də rahatlıq və səfa tapmır:

*Heydərbaba, səni vətən bilmişdim,*
*Vətən deyib, baş götürüb gəlmişdim,*
*Səni görüb göz yaşımı silmişdim,*
*Halbuki, lap qəmli qürbət səndəymiş,*
*Qara zindan, acı sərvət səndəymiş.*

Şair gələcək Azərbaycan övladlarına sanki nəsihət edərək deyir:

*Heydərbaba, alçaqların köşk olsun,*
*Bizdən sonra qalanlara eşq olsun,*
*Keçmişlərin gələnlərə məşq olsun,*
*Övladımız məzhəbini danmasın,*
*Hər içi boş sözlərə aldanmasın.*

IY OXUCU: "Heydərbabaya salam" poeması iki hissə olsa da bölünməz vahid süjeti olan misilsiz bir əsərdir. Onun bütövlüyü, bölünməzliyi ana-oğul, vətən-vətəndaş, ulu babalar və nənələr, sələflər-xələflər vəhdətindədir, nəsildən-nəsilə keçib ölməyən milli ruh birliyindədir.

Yekun: (kitabxanaçı və ya ədəbiyyat müəllimi): Böyük şairimiz M.Şəhriyarın "Heydər babaya salam" poeması xalqımızın epopeyasıdır. Ana torpağa içləmiş köklər, onun üstündə gövdə, gövdəboyu qanadlar, budaqlar, kökdən cücərən pöhrələr varisliyi "Heydərbabaya salam" əsərinin əsas məzmun, məna və qayəsidir.

Tədbir keçirilən salona gur "Aman ayrılıq" mahnısının adamı düşündürən melodiyaları yayılır. Hamı bu ayrılığa son qoyulacağına böyük ümidlə ayaq üstədir. Çox emosional səslə oxunan şer parçaları salondakıları ayaq saxlamağa məcbur edir.

*Getbəgedə artıq dünya ayrılır,*
*Gizlin qalmır, səs-sədalar yayılır,*
*Sayılmayan kimsələr də sayılır,*
*Məni, səni azçox təhvil olan var,*
*Sənin kimi məni yada salan var.*

*İnsanlarıq insanlığı xoşlayın,*
*Bir millətik birləşməyə başlayın,*
*Bu xanxanlıq hökumətin boşayın,*
*Bu gün bəşər gərək olsun bir millət,*
*Bir millətə olarmı yüz hökumət.*

Göründüyü kimi məktəbli oxucuların anlaq səviyyəsinə və yaş xüsusiyyətlərinə uyğun əsərlərin müzakirəsi onların daha tez ünsiyyətə girmələrinə, bir-birini başa düşmələrinə şərait yaradır. Belə əsərlər milli birlik, milli ruh, özünəqayıdış, milli ləyaqət kimi keyfiyyətlər tərbiyə edir.

Məktəbli oxucularda (Y-IX sinif şagirdləri) milli şüur və milli ləyaqəti formalaşdıran görkəmli şəxslərin M.Ə.Rəsulzadənin, H.Əliyevin həyat və fəaliyyətləri nümunəsində tərbiyədən, F.Xoyskinin, Ə.Ağaoğlunun, S.Mehmandarovun, N.Yusifbəylinin, Ə.Şıxlinskinin, T.İsmayılovun, A.Məmmədovun, görkəmli alimlərlə, yazıçı və şairlərlə görüşlərdən və digər tədbirlərdən də istifadə olunur. Xalqın özünəməxsusluğu məktəblilərin fəaliyyət və davranış normalarında təzahür etməlidir. Yeniyetmə oxucular (şagirdlər) dərk edirlər ki, milli dirçəlişin, milli intibahın, mənlik şüuru və milli qürurun özəyini gənc nəslin mənəviyyatca saflaşması təşkil edir. Milli qürurumuz və xalqımızın tarixi kökləri olan Nizami, Nəsimi, Füzuli hikmətindən, Mirzə Cəlil təpərindən, Sabir yanğılarından, Şəhriyar və Bəxtiyar təəssübündən, Xəlil Rza Ulutürkün dönməzliyindən bəhrələnməlidir.

Kitabxanalarda təşkil olunanan bu tədbirlər vasitəsilə məktəbli oxucularda Vətənə şəxsi münasibət - onun ləyaqətini, əzəmətini, şərəfini, şöhrətini, qüdrətini bərqərar etmək üçün arzu, mənəvi coşqunluq formalaşdırmağa çalışırlar. Onlar Vətən ideyasının nədən ibarət olduğunu dərk edərək, onun indiki və gələcəyi haqqında məhəbbət, minnətdarlıq, fərəh, həyəcan, qayğı, onun düşmənlərinə barışmazlıq və uğrunda canından keçməyə hazır olmaq hissi keçirərək, gənclik çağlarında özünü dərk edir, öz ləyaqətini bərqərar edir. Belə tədbirlər sayəsində məktəbli oxucular doğma torpağı vətəndaş gözlərilə görür, keçmişi sorğu-sual edir, müasir dövrün mürəkkəb hadisələrini başa düşür, gələcəyə düzgün istiqamət götürməyi öyrənirlər.

Beləliklə məktəbli oxucuların milli şüurunun formalaşdırılması və milli ləyaqətin tərbiyə edilməsi ən aktual bir məsələ kimi qarşıda durur. Qabaqcıl kitabxanalar və kitabxana işçiləri, o cümlədən F.Köçərli adına Dövlət Uşaq Kitabxanası bu böyük və həyati problemə xüsusi əhəmiyyət verərək məktəbli oxucuları əsil ləyaqətli vətəndaş kimi tərbiyə etmək üçün müxtəlif tədbirlərdən istifadə edirlər.

## Ə D Ə B İ Y Y A T


1. Alməmmədov D. Sənin mənəvi gözəlliyin. - B.: Gənclik, 1974. 925 s.
2. Bayramov Q. İnsan və zaman. B.: Azərnəşr, 1992.182 s.
3. Əkbərov F., Camaloğlu N. İnsan, mənəviyyat və cəmiyyət.B. 2003. 424 s.
4. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı. - B.: Ozan, 1999.496 s.
5. Həbiboğlu B. Qədim türklərin dünyagörüşü.B.Qartal - 1996. - 224 s.
6. İsmayılov T. İnsan və dünya.B. 1994. - 96 s.
7. Komanin. Sənin həyatda yerin. B.: Gənclik, 1984. - 98 s.
8. Qarabağlı Ə. İnsanlıq naminə. - B.: Şirvannəşr, 2002. 80 s.
9. Mikayılov A. Sən və gözəllik aləmi. - B.: Gənclik, 1978.100 s.
10. Novruzova N. Məktəblilərdə milli şüur və milli ləyaqət hisslərinin tərbiyə olunması.B. 1993. - 86 s.
11. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. - B.: Gənclik, 1991.112 s.
12. Şəhriyar. Heydərbabaya salam - B.: Azərnəşr, 1964.24 s.



**F.Qasımova,**
**F.Köçərli adına Dövlət Uşaq Kitabxanasının direktoru**